

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 179 (21.589)

24 sentyabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən XV Yay Paralimpiya Oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Sonra təltifetmə mərasimi olub.

Prezident İlham Əliyevin Azərbaycan milli paralimpiya komandasının üzvlərinin təltif olunması ilə bağlı sərəncamları elan edilib.

Dövlətimizin başçısı Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XV Yay Paralimpiya Oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə təltif edilmiş idmançılara və onların məşqçilərinə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu, "Tərəqqi" medallarını, "Vətənə xidmətə görə" və "Şöhrət" ordenlərini təqdim edib, onlara bir daha uğurlar arzulayıb.

Sonda xatirə şəkli çəkdirilib.

## Rabitə xidmətlərinin əhatə dairəsi genişləndirilir

***Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi sahəsində həyata keçirilən tədbirlər davam etdirilir.***

Artıq muxtar respublikada bütün sahələrdə informasiya texnologiyalarının imkanlarından geniş istifadə olunur. Yaradılan şəraitin nəticəsidir ki, sakinlərə keyfiyyətli rabitə və internet xidməti göstərilir. Avqust ayında da bu işlər davam etdirilmiş, 347 yeni abunəçi genişzolaqlı internetlə təmin olunmuş, Naxtel LTE şəbəkəsinin Düylün, Əndəmic, Üstüpü, Tivi, Bist və Nüsnüs kəndlərindəki baza stansiyaları 4G şəbəkəsinə qoşulmuşdur.

"Evədək optika" layihəsinin icrası ilə əlaqədar 8 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmiş, 484 ədəd yeni telefon nömrəsi istismara verilmiş, muxtar respublika üzrə, ümumilikdə, 13 min 217 metr fiber-optik kabel xəttinin tikintisi aparılmışdır. Bu dövrdə seçki məntəqələrinin hər birinə telefon xətti çəkilmiş, 35 seçki məntəqəsində veb-kamera quraşdırılmışdır.

Yeni texnologiyalar üzrə ixtisaslı kadrların hazırlanması müasir dövrdə qarşıda duran əsas vəzifələrdəndir. Muxtar respublikada bu iş daim diqqətdə saxlanılır. Ötən ay Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyalar Tədris Mərkəzində təşkil olunan kompüter kurslarında 35 dinləyici təhsil almışdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Muxtar respublikada hava nəqliyyatının inkişafı istiqamətində görülən işlər avqust ayında da davam etdirilmiş, xidmətin səviyyəsi yüksəldilmişdir.*

## Avqust ayında Naxçıvan Beynəlxalq Hava Limanının xidmətlərindən 39 mindən artıq sərnişin istifadə etmişdir



Ay ərzində yerli hava xətti ilə 39 min 129 sərnişin, 73 min 293 kiloqram baqaj, 41 min 838 kiloqram yük və 1905 kiloqram poçt daşınmışdır. Beynəlxalq hava xətləri üzrə isə Naxçıvan-Moskva reysi ilə 490 sərnişin, 5 min 146 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 613 sərnişin və 6 min 873 kiloqram baqaj daşınmışdır.

Aerovağzal binasında teleskopik traplara, nəzarət müşahidə kameralarına və kompüterlərə texniki baxış keçirilmiş, nasazlıqlar vaxtında aradan qaldırılmışdır. Hava gəmilərinə uçuşdan sonra və uçuşqabağı texniki baxış keçirilmişdir. Həmçinin aerodrom ərazisindəki elektrik, işıqlandırma, rabitə, istilik və havalandırma sistemlərinə texniki qulluq göstərilmiş, uçuş-enmə zolağı, dönmə yolları və dayanacaqlar mütəmadi yoxlanılmış, uçuşların vaxtında və təhlükəsiz təşkili təmin edilmişdir. Bundan başqa, istismarda olan bütün növ xidməti avtomobillər qış mövsümünə hazırlanmış, onların işlək vəziyyətdə olması diqqətdə saxlanılmışdır.

Hava limanı əməkdaşlarının peşə bacarığını artırmaq məqsədilə keçirilən təlimlər ötən ay da davam etdirilmişdir.

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***

## Qaz təsərrüfatı işçiləri payız-qış mövsümünə hazırlığı diqqətdə saxlayırlar

***Muxtar respublikanın yaşayış məntəqələrinin və istehsalat sahələrinin təbii qazla təminatını həyata keçirmək üçün "Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən ardıcıl tədbirlər görülür.***

İstehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi avqust ayında da diqqətdə saxlanılmışdır. Belə ki, daxil olan müraciətlərə əsasən 290 obyekt qazlaşdırılmış, təzyiq tənzimləyicilərinə, odorant qurğularına, ölçü qovşaqlarına, magistral, daşıyıcı, paylayıcı qaz kəmərlərinə və onların üzərində olan kranlara, siyirtmələrə, yaşayış məntəqələrində istismar edilən qaz tənzimləyici qurğu və məntəqələrə qrafik üzrə texniki baxış keçirilmiş, aşkar olunan müxtəlif nöqsanlar aradan qaldırılmışdır.

Sızmaların aşkarlanaraq aradan qaldırılması itkilərin qarşısının alınmasında başlıca amildir. Ötən ay muxtar respublika üzrə 1727 sızma aradan qaldırılmış, Naxçıvan şəhərində 848 ədəd smartkarttipli qaz sayğacı quraşdırılmışdır. Yeni qaz boru xətlərinin quraşdırılması, yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol və qapı keçidlərinin əvəz edilməsi ilə əlaqədar olaraq 24 min 250 metr borudan istifadə olunmuşdur.

Qaz təsərrüfatı işçilərinin peşəkarlığının artırılması, eləcə də bu sahədə mütəxəssislərin hazırlanması işi də diqqətdə saxlanılmış, bununla bağlı peşə məktəblərində müvafiq kurslar təşkil olunmuşdur.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

## Muxtar respublikada referendumun demokratik və şəffaf keçirilməsi üçün hərtərəfli şərait yaradılıb

### *Seçki məntəqələrinin hazırlığı bunu deməyə əsas verir*

***"Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Referendum Aktı layihəsinin ümumxalq səsverməsinə (referenduma) çıxarılacağı günə çox az vaxt qalıb. Muxtar respublikamızda fəaliyyət göstərən dairə və məntəqə seçki komissiyaları bu əhəmiyyətli tədbiri uğurla başa çatdırmaq üçün yaradılmış bütün imkanlardan səmərəli istifadə etməyə səy göstərirlər.***

Referenduma hazırlıq işləri 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin bütün seçki məntəqələrində uğurla başa çatdırılıb. Seçki məntəqələri lazımi avadanlıqlarla təmin olunub, seçici siyahıları müvafiq yerlərdən asılıb. Dairə seçki komissiyasının sədri Cahangir Seyidovla söhbətimizdə öyrəndik ki, bu dairə üzrə 37 məntəqə fəaliyyət göstərir. Ümumilikdə, bu məntəqələrdə 44 min 304 seçici səs verəcək. İlk dəfə səs verəcək seçicilər 615 nəfərdir. Seçicilərin 1 nəfərinin yaşı 100-dən yuxarıdır. Komissiya sədrinin sözlərinə görə, seçki məntəqələrinin hamısı müasir binalarda yerləşir. Seçki sənədlərinin mühafizəsi üçün tədbirlər görülüb. Dairənin 4-10, 4-12, 4-15, 4-17 və 4-28 saylı seçki məntəqələrində veb-kameralar quraşdırılıb.

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində yerləşən 4-33 saylı seçki məntəqəsində bütün hazırlıqlar tamamlanıb. Məntəqə seçki komissiyasının sədri Azər Əmiyev bildirdi ki, seçki məntəqəsində 857 seçici qeydiyyatdadır. Onların 13 nəfəri ilk dəfə səs verəcək.

Məntəqədə olarkən adını seçici siyahısında axtaran Rövşən İsrafillə rastlaşdıq. O qeyd etdi ki, bura gələrək siyahıda adının olmasını təkrar dəqiqləşdirmək istəyib. Adını seçici siyahısında tapıb.

Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə fəaliyyət göstərən 4-23 saylı seçki məntəqəsində də referenduma hazırlıq işlərinin tamamlandığının şahidi olduq. Məntəqə seçki komissiyasının sədri Mehdi Bağırov bildirdi ki, bu məntəqədə 1008 seçici qeydiyyatdadır. Onların 16 nəfəri ilk dəfə səs verəcək. Səsvermənin keçiriləcəyi otaqlarda yüksək şərait yaradılıb. Katib və üzvlər, həmçinin prosesi izləyəcək müşahidəçilər üçün yerlər müəyyən edilib.

Bu məntəqədə səs verəcək Sevinc Səfərova ilə söhbətimizdə bir daha əmin olduq ki, seçicilər ümumxalq səsverməsində yüksək əhval-ruhiyyə ilə iştirak edəcəklər. O dedi ki, Konstitusiya dəyişikliyi hər bir ölkənin həyatında mühüm ictimai-siyasi hadisədir. Referendum Aktı layihəsi ictimai müzakirəyə çıxarıldığına görə, dəyişikliklərin hansı maddələr üzrə aparıldığı barədə məlumatlıdır.

Veb-kamera ilə təchiz olunmuş 4-28 saylı seçki məntəqəsində də olduq. Bu məntəqə Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə yerləşir. Məntəqə seçki komissiyasının sədri Arzu Abdullayevdən aldığımız məlumata görə, 1494 seçicinin qeydiyyatda olduğu məntəqədə 18 nəfər ilk dəfə səs verəcək.

Ümumiyyətlə, 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin əksər məntəqələrində apardığımız müşahidələr zamanı məntəqələrin referenduma tam hazır olduğunun şahidi olduq.

Bəs muxtar respublikanın bölgələrində vəziyyət necədir? Sədərək rayonunda da referenduma hazırlıq işləri çərçivəsində lazımi tədbirlər görülüb. 1 saylı Şərur-Sədərək Seçki Dairəsi dairə seçki komissiyasının sədri Niyaz Əsgərovdan öyrəndik ki, dairə üzrə fəaliyyət göstərən 35 seçki məntəqəsində, ümumilikdə, 38 min 664 nəfər seçici səs verəcək. Onlardan 591 nəfəri ilk dəfə səsvermə hüququndan istifadə edəcək.

Dairənin 8 məntəqəsi Sədərək rayonu ərazisində yerləşir. Görülən işlər nəticəsində rayon ərazisindəki bütün məntəqələr referenduma hazır vəziyyətə gətirilib. Şərur-Sədərək Seçki Dairəsi ərazisində 5 məntəqədə olan veb-kameralardan biri də Heydərabad qəsəbəsində yerləşən 1-1 saylı seçki məntəqəsində quraşdırılıb. Sədərək rayonunda 10 min 441 nəfər aktiv seçki hüququna malik seçici qeydə alınıb. Rayon sakinlərindən 154-ü ilk dəfə bu prosesdə iştirak etmək hüququ qazanıb.

Ordubad rayonunda olarkən burada da referenduma hazırlıq işlərinin uğurla başa çatdığını gördük. 7 saylı Ordubad-Culfa Seçki Dairəsi dairə seçki komissiyasının sədri Həsən Həsənov dedi ki, dairədə 48 məntəqə fəaliyyət göstərir. Onlardan 41-i Ordubad rayonu, 7-si isə Culfa rayonu ərazisində yerləşir. Referenduma 5 gün qalmış Ordubad rayonu ərazisində yerləşən hərbi hissələrdə əlavə 4 məntəqə yaradılıb. 7 saylı Ordubad-Culfa Seçki Dairəsində 34 min 865 nəfər seçici qeydiyyatdadır. Onlardan 28 min 531 seçici Ordubad rayonu ərazisində yaşayır. Həmin seçicilərin 481 nəfəri ilk dəfə səs verənlərdir. Dairənin Culfa rayonu ərazisində yaşayan 5 min 648 nəfər seçicisindən isə 99 nəfəri ilk dəfə səsvermə hüququndan istifadə edəcəkdir.

Dairənin bütün məntəqələri referenduma tam hazır vəziyyətə gətirilib, lazım olan avadanlıqlarla təmin olunub, məntəqə seçki komissiyası üzvləri üçün treninqlər keçirilib. Dairənin 7-1, 7-2, 7-3, 7-4 və 7-6 saylı seçki məntəqələrində veb-kameralar quraşdırılıb.

Ümumxalq səsverməsinin uğurla başa çatmasında maarifləndirmə işinin böyük rolu var. Bununla əlaqədar keçirilən seminarlar, treninqlər və Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış müxtəlif təlimatlar, kitabçalar məntəqə seçki komissiyası üzvlərinin, habelə seçicilərin köməyinə çatır. Naxçıvanlı seçicilər də səsverməyə hazırdırlar. Çünki onlar Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərin məğzi ilə artıq tanışdırlar. Müşahidələrimizə əsasən deyə bilərik ki, muxtar respublika ərazisində yerləşən bütün məntəqələrdə referenduma hazırlıq işləri uğurla başa çatdırılıb. Naxçıvanda ümumxalq səsverməsinin yüksək səviyyədə keçirilməsi üçün bütün imkanlardan səmərəli istifadə olunur. Referendum günü də bunun şahidi olacağıq.

**✍ Rauf ƏLİYEV**

## Naxçıvan dünən

# Arpaçayın problemləri

Arpaçayı qədim Naxçıvan torpağının, bərəkətli Şərurun incisi adlandıranlar heç də səhv etmirlər. Mənbəyini durnagözlü bulaqlardan, saf su mənbələrindən alan bu çaya el məhəbbəti ilə neçə-neçə söz qoşulub, mahnı yazılıb. Son onillikdə çayın yatağında salınan dəryaça təbiətin ecazkarlığını artırmaqla həm də təsərrüfat əhəmiyyətinə malikdir. Arpaçaydan çəkilən kanallar indi Şərurun qan damarları hesab olunur. Çayın ətrafında təbiətə, ətraf mühitə qayğı göstərmək, ekoloji pozuntuya yol verməmək şərtilə gözəl istirahət guşələri yaratmaq mümkündür.

Şərqi Arpaçay öz axarını Zəngəzur dağ silsiləsinin 3050 metrliyindən alır, onun mənbədən mənsəbə uzunluğu 126 kilometrdir və bütün bu ərazidə çay insan laqeydliyinə məruz qalır. Arpaçay Araza doğru axdıqca çirkləndirilir. Bədxah qonşularımız ermənilər bu çaya, demək olar ki, qənim kəsilmişlər. Ermənistanın şərqində yerləşən irili-xırdalı sənaye müəssisələri və yaşayış massivlərindən çıxan zərərli çirkab suları birbaşa çaya axıdılır. Yaz və yay aylarında bu çirklənmə daha güclü olur. İndi ermənilərin Arpaçaya vurduqları illik ziyan 100 min manatlarla yox, milyon manatlarla ölçülür. 4-5 il bundan əvvəl onlara edilən etirazlara heç olmasa cüzi reaksiya verirdilər. Qondarma Dağlıq Qarabağ problemini ortaya atdıqdan sonra isə tam özbaşınalıq edirlər.

Arpaçayda hər ayda iki dəfə tərəfimizdən lazımı tədqiqat işləri aparılır, ümumi vəziyyəti təhlil edirik. Laboratoriya təhlilləri göstərir ki, biz özümüz bu çaya heç də bədxahlarımızdan yaxşı münasibət göstərmirik. Gümüşlü filiz mədənindən, Şərur rayonunun bu çayın kənarında yerləşən təsərrüfatlardan çaya ziyan dəyir. Xidmət sexləri, sənaye və ictimai iaşə müəssisələrindən çıxan tullantının çoxu məhz çayın yatağına tökülür, suya qarışır. Xanlıqlar kəndi ərazisində yerləşən üzüm emalı müəssisəsindən çıxan çirkab və zərərli tullantılar çayı ciddi surətdə çirklənməyə məruz qoyur. Zavodda yüz min manatlarla xərc qoyub təmizləyici qurğu tikilsə də, neçə illərdən bəri bir gün belə, işləməyib. Qiymətli avadanlıqlar sıradan çıxıb. Müəssisədə ekoloji pozuntular üçün məsuliyyət daşıyan şəxslər dəfələrlə tərəfimizdən cərimə olunsalar da, bu barədə rayonun aid təşkilatlarına müraciət edilsə də, heç bir nəticə yoxdur. Arpaçayın yatağında bir neçə yerdə çınqıl və asfalt-beton sexlərinin salınması, yanaşı təsərrüfatlarda mineral gübrələrdən, zərərli maddələrdən düzgün istifadə olunmaması, Şərur Şəhər Sanitar-Mühafizə İdarəsinin məişət tullantılarını çayın kənarına tökməsi elə bir antisanitariya vəziyyəti yaradıb ki, sözlə ifadə etmək çətindir. Hazırda iş o yerə çatıb ki, çayın bizim ərazidə tezliklə quruması təhlükəsi yaranıb. Bu mənada, çaydan ayrılan sol və sağ sahil kanallarının nizama salınması xüsusilə vacibdir ki, su sərfi qaydaya düşsün və Arpaçayın axarı tükənməsin. Çayın sahilində qeyri-qanuni yerləşdirilən hər cür sex, müəssisə və kooperativlər oradan götürülməlidir. Biz təbiətimizin zərərləri bahasına 5-10 nəfərin qazancı üçün kədərli vəziyyətə göz yummamalıyıq. Arpaçayın dərdləri və xilası yolları əsasən bunlardır.

***Naxçıvan Muxtar Respublikası Təbiəti Mühafizə Komitəsinin Laboratoriya şöbəsi***
***"Şərq qapısı" qəzeti, 22 yanvar 1992-ci il***



## və bu gün

# Evlərə nur, tarlalara bolluq, təbiətə gözəllik bəxş edən Arpaçay

***O dövrdən bizi elə də böyük zaman ayırmır. Ancaq həmin dövr hələ uzun zaman yaddaşlarımızda ən yeni tariximizin ağrılı illəri kimi xatırlanacaq. Taleyin Azərbaycanı tarixin ən böyük sınaqlarından birinə çəkdiyi ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan böyük çətinliklərlə qarşılaşmışdı. Ana Vətəndən ədalətsiz qərarlar üzündən ayrı düşmüş bu qədim diyar blokada vəziyyətinə salınmaqla məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı.***

Sabahı üçün heç bir nikbin proqnozun verilə bilmədiyi Naxçıvan sanki yeni minilliyə daxil olmaq üçün tarixin ona əxz etdiyi mürəkkəb imtahanlardan keçməli idi. İqtisadiyyat, kənd təsərrüfatı, nəqliyyat, energetika, rabitə və digər sahələrin iflic duruma düşdüyü həmin dövrdə təbiət də ona göstərilən "münasibətdən" öz payını almış, "ölüm" və ya "qalım" mübarizəsinə cəlb edilmişdi. Bir zamanlar adına təriflər söylənən, şəninə mahnılar qoşulan Arpaçay da bu problemlərin girdabında daha əvvəlki tək gur axmır, Şərurun incisi ola bilmirdi. 24 il bundan əvvəl "Şərq qapısı" qəzetində dərc olunmuş "Arpaçayın problemləri" yazısı da məhz həmin dövrün reallıqlarını, Naxçıvanın bu gözəl təbiət abidəsinə qarşı olan biganə münasibəti bir daha gözlərimiz önünə gətirir.

Arpaçay Şərur rayonunun sosial-iqtisadi həyatında müstəsna əhəmiyyətə malik obyektlərdəndir. Çay üzərində yaradılmış dəryaça ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana bəxş etdiyi əvəzsiz yadigarlardan biridir. Bir zamanlar çoxları üçün xəyal kimi görünən Arpaçay dəryaçasının tikintisi sovet dövründə ulu öndərin siyasi uzaqgörənliyinin nəticəsi olaraq həyata keçirilib. 1977-ci ildə 150 milyon kubmetr su tutumu olan Arpaçay Su Anbarının istifadəyə verilməsi Şərurda kənd təsərrüfatının sürətli və davamlı inkişafı üçün əsaslı zəmin yaradıb. Lakin qeyd etdiyimiz kimi, ötən əsrin sonlarında muxtar respublikada bir çox sahələrin bərbad vəziyyətə düşməsi Arpaçaydan da yan keçməyib. Çaya olan biganə münasibət bir müddət davam edib. Yalnız 1995-ci ildən başlayaraq muxtar respublikada aparılan məqsədyönlü islahatlar nəticəsində digər sahələr kimi, Arpaçay kimi mühüm hidroloji abidələrin mühafizəsinə də diqqət artırılıb. Burada əsas diqqət ediləsi məqam ondadır ki, muxtar dövlətin həyata keçirdiyi tədbirlər sayəsində təkcə bu tipli obyektlər deyil, ümumilikdə, təbiətə olan münasibət köklü surətdə dəyişib. Heydər Əliyev yolunun uğurlu davamının nəticəsidir ki, hazırda muxtar respublika ərazisinin 27 faizdən çoxu xüsusi mühafizə olunan təbiət əraziləridir. Bu sahədə atılan addımlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 22 iyun 2009-cu il tarixli Sərəncamı ilə ümumi ərazisi 68911,18 hektar olan "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılmasıdır. Arpaçayın mühafizəsində mühüm əhəmiyyəti ilə seçilən bu addım təbiətə ən böyük qayğının nümunəsidir. Əlbəttə, təbiətə hansı münasibəti göstərsən, onun qarşılığını da alacaqsan. İndi Arpaçay Su Anbarının hesabına Şərur, Kəngərli və Sədərək rayonlarında 20 min hektara yaxın əkin sahəsi suvarılır, yeni yaşıllıqlar, meyvə bağları salınır.



Müasir dövrü elektrik enerjisi olmadan təsəvvür etmək mümkün deyil. Əgər indi muxtar respublikanın ərazisində elektrik enerjisinin texniki səbəblərdən qısa müddətdə kəsilməsi əhalidə müəyyən təəccüb doğurursa, çox da uzaq olmayan 15-20 il əvvəl elektrik enerjisinin gün ərzində 2-3 saat verilməsi insanlara sevinc hissi yaşadırdı.

Əgər hazırda muxtar respublikamız elektrik enerjisi ixrac edirsə, müqayisə etdiyimiz dövrdə Naxçıvan bu enerji növünün idxalından asılı idi. Bu asılılıqdan bizi məhz Arpaçay kimi su dəryaçaları xilas etdi. Əgər vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən muxtar respublikamızda belə su anbarları yaradılmasaydı, yəqin ki, bu gün Naxçıvanın enerji ixracından da danışa bilməyəcəkdik. Qeyd edək ki, ötən dövrdə ölkəmizin elektroenergetika sektoru üzrə enerji təchizatının dayanıqlılığı, səmərəliliyi və təhlükəsizliyi prinsipləri nəzərə alınaraq mühüm dövlət proqramları qəbul olunub. Proqramlara əsasən, muxtar respublikamızda da olduqca əhəmiyyətli işlər görülüb. Haqqında bəhs etdiyimiz Arpaçay üzərində 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları tikilib istifadəyə verilib.

Dövlət başçısı cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının işə salınması mərasimində iştirak edərək deyib: ***"Bu gün Naxçıvanda əlamətdar bir gündür. Biz "Arpaçay-1 və 2" Su Elektrik stansiyalarının açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu hadisə bir daha onu göstərir ki, bu gün Naxçıvan inamla, uğurla inkişaf edir. Naxçıvanda böyük infrastruktur layihələri icra edilir. Respublika çox dinamik inkişaf dövrünü yaşayır".***

*Bəli, ötən əsrin sonlarında insanların laqeydliyi ucbatından müxtəlif problemlərlə üz-üzə qalan Arpaçay bu gün ona göstərilən qayğının əvəzini artıqlaması ilə ödəyir. İndi Arpaçayın kənarında yaradılmış restoranlar muxtar respublika sakinlərinin və qonaqların mənalı istirahəti üçün ideal məkanlardır. Arpaçay isə evlərə nur, tarlalara bolluq, təbiətə gözəllik bəxş edir.*

**✍ Səbuhi HƏSƏNOV**

**Yazı "Naxçıvan: dünən və bu gün" yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçündür**

## Naxçıvan məhsulları xarici bazarda

# Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksinin məhsulları Gürcüstana ixrac olunur

*Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti son illər yaradılan sənaye müəssisələrindəndir. Sənaye şəhərciyində inzibati bina, istehsal sexləri, yeməkxana, satış şöbəsi üçün bina, xammal və hazır məhsulun saxlanılması məqsədilə anbar tikilib istifadəyə verilib.*

Müəssisədə keyfiyyətli müxtəlif meyvə şirələri, meyvə quruları, şərab, halva istehsal olunur. Müəssisənin illik istehsal gücü 120 dekalitr meyvə şirələri və şərab, 180 ton şirniyyat məhsullarıdır. Burada İtaliya və Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Naxçıvanda yetişdirilən meyvələrdən tam gigiyenik qaydada yüksəkkeyfiyyətli müxtəlif həcm və çeşidlərdə alma, ərik, şaftalı, gilənar, üzüm və qarışıq tərkibli nektarlar istehsal edilir. Həmin məhsullar "Badamlı" əmtəə nişanı ilə satışa çıxarılır.

Diyarımızın ən qədim əkinçilik sahələrindən biri olan üzümçülüyün inkişaf perspektivləri nəzərə alınaraq qurulan şərab emalı sahəsində istehsal prosesi tam avtomatlaşdırılıb. Müəssisədə istehsal olunan 4 çeşiddə – kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları "Mirvari" və "Qızıl damla" adları ilə satışa çıxarılır.

Cəmiyyət həmçinin 3 çeşiddə, müxtəlif çəki və formalarda küncüdlü halva istehsalı ilə də məşğuldur. Əsasən, sadə, kakaolu və qarışıq növdə istehsal olunan halva yüksək keyfiyyətə malikdir. Çərəzqovurma və paketləmə sahəsində də texnoloji proseslərə ciddi əməl olunur, günəbaxan, qabaq, noxud, püstə və qarışıq çeşidli çərəzlər təmizlənib qovrularaq 90 və 200 qramlıq paketlərdə qablaşdırılır.

Müəssisədə 2011-ci ilin iyul ayından meyvə nektarlarının karton taralara qablaşdırılması layihəsinin həyata keçirilməsinə başlanılıb. Bunun üçün yeni bina inşa olunub və burada İsveçin "Tetra Pak" firmasının istehsal gücü saatda 7 ton 1 litrlik və 1600 litr 200 millilitrlik taralar olan müasir texnoloji avadanlıqları quraşdırılıb. 2012-ci ilin mart ayından istehsala başlanılıb. Nəfis tərtibatla bəzədilmiş karton taraların üzərində Azərbaycan, ingilis və rus dillərində məhsulun istehsal və son istifadə tarixi, tərkibi, istifadə qaydası, saxlanma şəraiti, standart göstəriciləri və mənşəyi haqqında məlumatlar göstərilir.



Daxili bazarın tələbatına uyğun yeni çeşidlərdə yerli ərzaq məhsullarının istehsalı da diqqət yetirilən sahələrdən olub, 2013-cü ildən tahin (küncüd yağı) və bəkməz istehsalına başlanılıb. Onu da qeyd edək ki, yerli xammaldan hazırlanan məhsullar yüksəkkeyfiyyətli qida məhsulu olmaqla yanaşı, həm də müalicəvi əhəmiyyətə malikdir.

İstehsal olunan məhsullar ölkəmizin digər regionlarında da satışa çıxarılır, xarici ölkələrə ixrac olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir.

Müəssisədə istehsal olunan məhsulların xammalı, əsasən, yerli sahibkarlardan alınır ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməmələrinə öz müsbət təsirini göstərir. Meyvə bağlarında yetişdirilən məhsulların tədarük olunması diqqət mərkəzində saxlanılır. Ayrı-ayrı rayonlardan gətirilən məhsullar vaxtında qəbul edilir. Müəssisədə olarkən həmsöhbət olduğum sahibkar Hicran İsmayılovun dediklərindən:

– Uzun illərdir, bağçılıqla məşğul oluram. Yetişdirdiyim məhsulun şəxsi istifadədən artıq hissəsini bazara çıxarıram. Amma məhsul eyni vaxtda yetişdiyindən az bir müddətdə bazarda satıb qurtara bilmir, minbir əziyyətlə ərsəyə gətirdiyim məhsulun, demək olar ki, yarıdan çoxu zay olurdu. Son illər muxtar respublikamızda tikilib istifadəyə verilən soyuducu anbarlar, emal və sənaye müəssisələri bu problemi aradan qaldırıb. Yetişdirilən məhsulun daimi alıcısı olduğuna inanıb daha səylə çalışır, daha çox məhsul əldə etmək üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstəririk. Bu həm də emal və sənaye müəssisələrinin yüksəkkeyfiyyətli yerli xammalla təchiz edilməsinə əlverişli şərait yaradır.

*Qeyd edək ki, yerli məhsullardan hazırlanan meyvə nektarları yüksək keyfiyyəti ilə seçilir. Bu da həm istehsalçı, həm də istehlakçı üçün sərfəlidir.*

**✍ Kərəm HƏSƏNOV**

# "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalının albom-kataloqunun təqdimatı olmuşdur

***Sentyabrın 23-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalının albom-kataloqunun təqdimatı olmuşdur.***






Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının sədr müavini Əli Həsənov albom-kataloqun təqdimatı münasibətilə iştirakçıları və muxtar respublika rəssamlarını təbrik edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bütün sahələrdə olduğu kimi, rəssamlığın və təsviri sənətin inkişafı sahəsində də ardıcıl tədbirlər görülür. Ötən müddət ərzində Bəhruz Kəngərli Muzeyi, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonu yaradılmış, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi üçün yeni bina istifadəyə verilmişdir. 2011-ci ildə Rəssamlar Birliyinin 40 illik yubileyi keçirilmiş, rəssamların çalışdığı köhnə emalatxanalar daha geniş və hər cür şəraiti olan emalatxanalarla əvəz olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Rəssamlar Parkının yaradılması haqqında" 14 noyabr 2015-ci il tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilmiş və burada görkəmli rəssamın abidəsi ucaldılmışdır.

Muxtar respublikada gənc rəssam kadrlarının hazırlanmasının da diqqətdə saxlanıldığını, bu məqsədlə Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət və rəsmxətt, Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisaslarının, məktəbdənkənar təhsil müəssisələrində isə rəsm dərnəklərinin açıldığını vurğulayan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri bildirmişdir ki, Naxçıvanda gənclərin rəssamlıq sənətinə yiyələnmələri üçün bütün imkanlar yaradılmışdır. Muxtar respublikada yaşayıb-yaradan rəssamların yaradıcılığının stimullaşdırılması üçün tədbirlər görülmüş, Azərbaycan boyakarlıq sənətinin klassik və müasir nümayəndələrinin albom-kataloqları hazırlanıb nəşr etdirilmişdir.

İncəsənətin, o cümlədən təsviri sənətin inkişafının nəticəsidir ki, artıq muxtar respublika beynəlxalq tədbirlərə ev sahibliyi edir. Belə tədbirlərdən biri də "Naxçıvan – bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm Festivalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən 2016-cı il mayın 26-da üçüncü beynəlxalq rəsm festivalı keçirilmişdir. Festival çərçivəsində Bəhruz Kəngərli adına Rəssamlar Parkının açılması, eləcə də festivalın "Əlincəqala" tarixi abidəsində keçirilməsi tədbirin əhəmiyyətini artırmış, iştirakçıların dəyərli əsərlər yaratmasına səbəb olmuşdur. Bu əsərlərdən ibarət olan "Naxçıvan–bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalının albom-kataloqu Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə nəşr olunmuşdur. Nəfis tərtibatda hazırlanan kataloqda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Rəssamlar Parkının yaradılması haqqında" Sərəncamı, parkın açılışı zamanı etdiyi dərin məzmunlu çıxışı, tədbirdən çəkilmiş fotoşəkillər, eləcə də festivalda iştirak edən 52 rəssam haqqında qısa bioqrafik məlumatlar yer almış, festivalda çəkilmiş rəsm əsərləri verilmişdir.

Əli Həsənov "Naxçıvan–bəşəriyyətin beşiyi" festivalının keçirilməsini və bu dəyərli albom-kataloqun nəşrini himayəsinə aldığına, eləcə də muxtar respublikamızda rəssamlıq sənətinin inkişafına göstərdiyi diqqətə görə təqdimat mərasiminin iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirmiş, "Naxçıvan–bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalının kataloqunun nəşri münasibətilə bir daha muxtar respublika rəssamlarını təbrik etmiş, yaradıcılıq uğurları arzulamışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyeva Naxçıvanda rəssamlıq sənətinin inkişafına göstərilən qayğıdan danışmış və minnətdarlıqlarını bildirmişlər.

Sonra festivalın iştirakçısı olmuş rəssamlara və tədbir iştirakçılarına "Naxçıvan–bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalının albom-kataloqu təqdim olunmuşdur.

**"Şərq qapısı"**

# Əlincəyə gedən yol

## *Dördüncü yazı*

Muzeydən çıxırıq. Bizi içəri dəvət etmiş xanıma təşəkkür edirəm və Bakıdan gəldiyimizi, jurnalist olduğumuzu söyləyirəm. Xanımın çöhrəsindəki təbəssüm bir az da artır. İndi əvvəlkindən də səmimi bir şəkildə bizi salamlayır. Hiss edirəm ki, qonaqların çoxluğu onun ürəyincədi. O da mənim nə demək istədiyimi anlayır və özü məlumat verir:

– Bugünkü qonaqlarımız muxtar respublikanın su təsərrüfatı işçiləridi. Adətən, istirahət günləri müxtəlif təşkilatların, qurumların nümayəndələri bizə qonaq gəlir. Əksəriyyəti də qalaya qalxırlar. Əgər siz də qalxmaq istəsəniz, onda pilləkənlərlə qalxın. Belə daha asan olar.

Ona təşəkkürümüzü bildirib pilləkənlərə tərəf gedirik. Ətrafda qəribə bir qoxu var. İlk bahar çiçəklərinin qoxusuna bənzəyir. Xeyli diqqət yetirəndən sonra kiçik sırğa qaşlı bənövşəyi çiçəklər diqqətimizi çəkir. Əyilib bir budağını üzürəm. İlahi, dünyanın ən bahalı ətirlərini indiki anda gücüm çatdıqca uzağa atardım. Təki bu çiçəyin qoxusuna qarışmayaydı…

Pillələri yavaş-yavaş qalxırıq. Arxadan səslər gəlir. Bayaq muzeydə gördüyümüz adamlardı. Qərara gəliblər ki, onlar da qalaya qalxsınlar. Amma bəziləri tərəddüd edir. Kimsə ortalığa söz atır:

– Bakıdan gələn yaşlı adam qalaya qalxır, biz isə burdan bura qalxmaq istəmirik…

Elə bil bu söz onların bütün fikirlərini alt-üst etdi. Bir də gördüm ki, arxadan gələn adamlar bir-bir bizi ötüb keçirlər. Bu anda da mən düşündüm:

– Torpaq, doğulduğun yer güclü olur. Onlar buranın havasına, şəraitinə uyğunlaşıblar. Eybi yox, mən də Şuşadan canımda qalan havayla dırmaşacam qalaya. Belə də edirik. Qalxdıqca sayırıq pillələri. Çünki aşağıda muzeyin önündə gördüyümüz xanım bildirmişdi ki, bu dağın dibindən qalaya qədər 1000 pilləkəndir. Bu rəqəm yaddaşıma yazıldığından mən də pilləri saya-saya qalxıram ki, görüm nə vaxt "ura!!!", "min!!!" deyəcəm. Amma hələ 300-cü pilləkəni qalxmamışam. Ona görə yoldan çəkilib pilləkənin kənarındakı səkinin üstündə əyləşirəm. Mütləq nəfəs dərmək lazımdı. Bu nəfəs dərmək işimizə çox yarayır. Birincisi ona görə ki, hava çox gözəldir. Yüksəkliyə qalxdıqca onun yüngüllüyünü daha çox hiss edirik. Eyni zamanda biz qalxdıqca ətraf ayaqlarımızın altında qalır, geniş bir panorama açılır. Onlara baxmaq, onları seyr etmək və sürücünün yolda bizim üçün aldığı sudan bircə qurtum içmək əlavə enerjidi. Bu pillələrdə, bu dağlıq ərazidə əlavə enerji, etiraf edim ki, bir tutiyadı. Onu qorumaq lazımdı, ondan səmərəli istifadə etmək lazımdı. Biz də çalışırıq ki, dayandığımız anı da boş ötürməyək. Diqqətimizi çəkən nə varsa, lentə köçürək. Yaxşı ki, müasir mobil telefonlar bu işdə adamın karına gəlir. Bircə enerji bloku adamın əlini quru yerdə qoymaya…



Bu da 500-cü pilləkən. Hə, deməli, yolu yarı etmişik. Burda elə 5 dəqiqə də oturmaq olar. Əyləşirik. Bizə yaxınlaşıb yanımızdan ötüb keçən su təsərrüfatı işçiləri artıq bizimlə mehriban görüşürlər. Görünür, muzey işçisinin bizi təqdim etməsi onların diqqətində ilişib qalıb. Və qonaq olduğumuzu nəzərə alıb hamısı bizə öz ehtiramlarını bildirirlər. Onların arasında ortayaşlı bir kişiylə atüstü söhbət də edirəm. Bildirir ki, özümü "təmirdən" yenicə çıxarmışam. İstəyirəm ürəyi burda sınaqdan keçirəm. Mən ona ehtiyatlı olmağı tövsiyə edirəm. O da gülümsəyir. Bu yolda inşallah heç nə olmaz. Bura bilirsiniz də haradı?! Onun bu işarəsi məni əməllibaşlı dilləndirir:

*Qurban olum torpağına, daşına,*
*Qaldır məni Əlincənin qaşına…*
*Qoy dolanım Vətən, sənin başına –*
*Dəməsinlər pərvanəsi çatışmır!*

Mərhum tələbə yoldaşım Cavanşir Eloğlunun – Dərviş Eloğlunun misralarıdı bu. Hələ tələbəlikdən əvvəl əzbər bilirəm…

Misraları söyləyib Cavanşirə rəhmət oxumağım həmsöhbətimi duyğulandırdı:

`– Mən də tanıyırdım onu. Heyif! – söyləyib yoluna davam etdi.

Biz də onun ardınca. Artıq pillələrin qalanın qapısından içəri hissəsindəyik. Burda dayanıb məşhur filmimizin burada necə çəkildiyini gözlərimiz önündə canlandırmağa çalışırıq. Baxdığımız hər tərəfdə tarixdən izlər axtarırıq. Elə buradaca mütləq qeyd etməliyəm ki, Əlincə qalasında çox mükəmməl bir yenidənqurma işləri, təmir-bərpa aparılıb. İşıq, su xətləri çəkilib, pillələrin kənarından dəmir tutacaqlar işlənib. Bu da qalaya qalxmaq istəyənlərin işini nisbətən asanlaşdırır…

Bəli, bu da Əlincə qalası. Artıq 1000-ci pilləni qalxdıq. Gözümüzün önündə dövlət bayrağımız dalğalanır. O bayrağın altında qürur hissi keçirməmək qeyri-mümkündü. İnan ki, orda dayanıb dünyanın hər yerini görmək mümkündü. Mənə elə gəlir ki, mən ordan Şuşanı da görürəm və hiss edirəm ki, bu bayraq mütləq orda da dalğalanacaq. Bayrağın altında şəkil çəkdirmək istəyirəm. Alınmır. Çünki telefonun enerji bloku sönüb. Birdən addım səsləri eşidirik. Əlində kamera olan və Naxçıvan televiziyasının əməkdaşına məxsus bir gödəkçədə oğlan bizə yaxınlaşır. Tanış oluruq. "Xəbərlər" proqramının gənc əməkdaşı İslam. Mən də özümüzü təqdim edirəm. Əməllibaşlı dostlaşırıq. İslam deyir: – Əbülfət müəllim, bu yüksəkliyə Ali Məclisimizin Sədri Vasif müəllim də çıxıb.



Təəccüblə onun üzünə baxıram. Elə bilirəm ki, məni imtahana çəkir, ya da sınayır. Amma yox. O, təbii bir şəkildə təkrar vurğulayır:

– Hörmətli Sədrimiz özü Əlincə qalasının bu son yüksəkliyinə qədər qalxıbdı.

Hə, mən burada onu da öyrənirəm ki, Naxçıvanda tez-tez mədəniyyət, tarixi yerlərin ziyarət günləri təşkil olunur və bu tədbirlərdə hamı bir nəfər kimi iştirak edir. Vallah, bu, birmənalı tarix sevgisidi, Vətən sevgisidi, torpaq sevgisidi. And olsun Allaha ki, bu, özünə, keçmişinə, gələcəyinə ehtiram deməkdi. Mən başqa heç nə deyə bilmərəm. Və bir də…

Mən elə buradaca Əlincəylə bağlı yazdığım misraları mütləq qeyd etməliyəm. Çünki bu misraları mənə bu yüksəklik özü pıçıldayır:

**ƏLİNCƏ**

*Cığır-cığır, ləpir-ləpir oxşayıb*
*Yaddaşını vərəqləyib, yoxlayıb*
*Mən tarixin sükutunu oxlayıb*
*Sehirləndim, qucağına gəlincə –*
*Əlincə!*

*Pillə-pillə üzü göyə qalxıram*
*Göy üzündən üzü göyə baxıram*
*Gördüyümü gözlərimə yığıram*
*Toxunuram təmas incə, əl incə –*
*Əlincə!*

*Zaman burda ayaq üstə diridi*
*Duyduğumu yazmalıyam, yeridi*
*Yurd həsrətim ümid tapdı – kiridi!*
*Əfsanəni, dözümünü bilincə –*
*Əlincə!*

*Burda başım göy üzünə dəysə də*
*Nisgilim var – dilimdəki nəysədə!*
*Şuşa dərdim büküb məni əysə də –*
*Dözəcəyəm düşmən bağrı dəlincə!*
*Əlincə!*

Əlincə qalasının zirvəsində bir saata qədər Naxçıvanı, göz işləyən və görmək qüdrətində olduğumuz bütün ətrafı seyr etdik. Həmin vaxt Naxçıvan televiziyasının əməkdaşları da bu qalanı gəzib qayıdıb getdilər.

Dostlaşdığımız operator İslam bizim xeyli sayda şəkillərimizi lentə aldı. Yəni Əlincədən əliboş qayıtmağımıza imkan vermədi. Və bizi əmin etdi ki, otelə çatana qədər o, şəkillərin elektron versiyasını ünvanımıza göndərəcək. Biz onunla sağollaşdıq. İndi qalxdığımız pilləkənləri enməyə başlayırıq. Aşağıda bizi yeni görüşlər, yeni ünvanlar, xüsusilə artıq darıxdığını hiss etdiyimiz sürücü gözləyir. Amma nə qədər darıxır, darıxsın. Biz yolüstü Nəiminin də məqbərəsini ziyarət edəcəyik.

Mən Əlincəyə qalxıb o zirvəni görənə qədər başqa bir dünyanın adamı idim. Ordan üzüaşağı qayıdanda isə tamam başqa bir dünyanın. Həmin o zirvədə bu şəraiti yaradanlara, bu tarixi yaşadanlara içimdən bir dua keçdi. Bir də Qarabağa qovuşmaq duasını içimdən gətirdim. Bilirəm ki, Allah ikisini də eşidir. Çünki Əlincə Allaha yaxın məkandı.

**Əbülfət MƏDƏTOĞLU**
***Əməkdar jurnalist, şair, publisist***
***"Ədalət" qəzeti, 22 sentyabr 2016-cı il***

# Oxucu məktubları

## "Şərq qapısı" qəzetinə yazırlar

## Naxçıvanlılar belə bir məmləkətdə yaşadıqları üçün xoşbəxtdirlər

*Mən Naxçıvana Ukraynadan gəlmişəm. Tələbəyəm. İlk dəfədir ki, buradayam. Naxçıvana Duzdağda müalicə olunmaq üçün gəlmişəm. Duzdağda müalicə oluna biləcəyim haqda məlumatı internetdə tapdım. Bronxial-astma xəstəliyindən müalicə olunmaq üçün bir çox yerlər axtarmışam. Bizdə – Qərbi Ukraynada da belə bir yer vardır. Amma Duzdağın müalicəvi təsiri daha çoxdur. Burada gördüyüm insanların xoş münasibətini və tibbi heyətin gülərüzlüyünü heç vaxt unutmayacağam. Bir çoxları ilə tanış olmuşam. Artıq bu həftə müalicə kursu bitir. Vətənimə qayıdandan sonra yenidən Naxçıvana bir turist kimi gəlmək istəyirəm.*



Mənim yaşadığım Jitomir şəhərində, təxminən, 200 min nəfər yaşayır. Amma Naxçıvanda daha müasir və gözəl binalar, abad yollar vardır. Qayda-qanunu, təmizliyi belə təsəvvür etmirdim.

Məni heyrətləndirən məsələlərdən biri də burada yaradılan muzeylərlə tanışlığın pulsuz olmasıdır. Mən dünyanın müxtəlif ölkələrində olmuşam. Bunun analoqu ilə heç yerdə rastlaşmamışam. Diqqətimi cəlb edən məqamlardan biri də burada yaradılmış sabitlikdir. Naxçıvana gəldiyim ilk günlərdə şəhərdə gəzərkən əl çantamı bərk saxlayırdım. Mənə dedilər ki, burada, ümumiyyətlə, oğurluq hadisəsi olmur. Bunun canlı şahidi oldum. Əl çantamı unutduğum kafeyə bir neçə saat sonra qayıtdım, çantanı qoyduğum yerdə tapdım. Naxçıvanlılar belə bir məmləkətdə yaşadıqları üçün xoşbəxtdirlər.

Vətənimə qayıdanda dost-tanışlarıma Azərbaycan, Naxçıvan haqqında danışacağam. Deyəcəyəm ki, Naxçıvana gəlsinlər. Qoy bilsinlər ki, Naxçıvana gəlsələr həm müalicə olunacaqlar, həm də yaxşı istirahət edəcəklər. Mən bu 15 günün necə keçdiyini heç bilmədim. Yaxşıca müalicə olundum. Naxçıvan şəhəri ilə tanışlıq məndə xoş təəssürat yaratdı. Sağ olsun, mənimlə bərabər buraya gəlmiş, Bakıda yaşayan, amma əslən Naxçıvandan olan xanım da bu səfərimdə mənə çox kömək etdi. Duzdağı, Naxçıvanı tanıdığım üçün çox sevinirəm. Burada olduğum müddətdə azərbaycanlı rəfiqəmin vasitəsilə "Şərq qapısı" qəzetini oxuduq. Öyrəndim ki, qəzetinizə elektron məktub göndərmək mümkündür. "Şərq qapısı" qəzeti vasitəsilə sağalmağımıza səbəb olan hər kəsə, belə bir gözəl yeri yaradan insanlara, hər gün bizimlə maraqlanan həkimlərə minnətdarlığımı çatdırıram.

**Hörmətlə, Olqa Nosal**
***Ukrayna Respublikasının Jitomir şəhər sakini***

## Minnətdarlıq

*Hörmətli redaksiya!*

**Hər dəfə muxtar respublikamızda təhsilin inkişafına göstərilən qayğının bəhrələrini görəndə qürur hissi keçirməmək mümkün deyil. İlbəil artan uğurlar isə həyatımızın bütün sahələrində özünü göstərir və təhsilin millətin gələcəyi olduğu deyimini bir daha təsdiq edir.**

## Fizika-Riyaziyyat Təmayüllü Lisey kompleksinin yaradılması təhsilə göstərilən yüksək diqqət və qayğının bariz nümunəsidir



Həqiqətən də təhsil hər bir xalqın gələcək inkişafını təmin edən ən zəruri vasitədir. Cəmiyyət qarşısında dayanmış bir sıra əsaslı problemlərin həlli, ilk növbədə, bu sahənin tərəqqisindən keçir. Təhsilin müasir dövrün tələbləri səviyyəsində inkişafı müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sevinirik ki, bu gün ulu öndərimizin işıqlı yolu muxtar respublikada uğurla davam etdirilir.

Hər il Naxçıvanda yeni məktəb binalarının tikintisi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, informasiya texnologiyalarının tətbiqi təhsilimizin müasir standartlar səviyyəsinə çatdırılmasını təmin edib. Bu baxımdan sentyabrın 15-də – Bilik Günündə Şərur şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Liseyin yeni tədris kompleksinin istifadəyə verilməsi sevincimizi ikiqat artırdı. Zirzəmi qatı ilə birlikdə 5 mərtəbəli tədris və yataqxana binalarından ibarət olan kompleks öz gözəlliyi ilə bizi heyran edir. Mən övladımın təhsil aldığı yeri görmək üçün liseyə getmişdim. Tədris binasında 5-i elektron lövhəli olmaqla, 19 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat otağı, 2 kompüter otağı, müəllimlər otağı, 55 yerlik akt zalı, kitabxana, arxiv və bufet olduğunu gördüm. Sözün həqiqi mənasında heyran qaldım. Dövlətimiz şagirdlərin yaxşı təhsil almaları üçün burada hər cür şərait yaradıb. Bu baxımdan Fizika-Riyaziyyat Təmayüllü Liseyin muxtar respublikada texniki fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılmasında böyük rol oynayacağına əminəm. Ümid edirəm ki, mənim övladım və onun məktəbli yoldaşları yaradılan bu gözəl şəraitdən səmərəli istifadə edəcəklər, dərslərini yaxşı oxuyacaqlar, bu şəraiti onlara yaradanlara həmişə bizim kimi minnətdar olacaqlar.

Məlumdur ki, ölkəmizdə belə profilli təhsil ocaqlarının əksəriyyəti ödənişlidir. Bu da hər uşağın həmin məktəbdə oxumasına imkan vermir. Ancaq Fizika-Riyaziyyat Təmayüllü Liseydə təhsil almaq dövlət hesabınadır və ailənin maddi vəziyyətindən asılı olmayaraq, hər bir uşaq burada oxuya bilər. Bu isə o deməkdir ki, liseydə təhsil alan uşaq dövlətimizin ona göstərdiyi qayğının əhatəsində dövlətçiliyimizə, müstəqilliyimizə sədaqət ruhunda formalaşacaq, ona göstərilən etimadı əməli fəaliyyəti ilə doğrultmağa çalışacaq.

Mən təhsilə göstərdiyi qayğıya, övladlarımızın dəqiq elmlərə marağını nəzərə alaraq hər cür şəraiti olan Fizika-Riyaziyyat Təmayüllü Liseyi yaradıb onu himayə etdiyinə görə, valideynlər adından muxtar respublika rəhbərinə sonsuz minnətdarlığımı bildirirəm.

**Vasif CƏFƏROV**
**Babək rayon Kültəpə kənd sakini**

## Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi onları cəmiyyətə qazandırıb



*Hörmətli redaksiya!* Bu məktubu sizə Naxçıvan şəhərindən yazıram. Bildirmək istəyirəm ki, bu gün muxtar respublikamızda cəmiyyətin bütün təbəqələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Xüsusilə sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi, cəmiyyətə inteqrasiyası yönündə mühüm addımlar atılır. Göstərilən qayğının nəticəsidir ki, Naxçıvan şəhərində fəaliyyət göstərən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu qəbildən olan uşaqların təhsilə cəlbi diqqət mərkəzində saxlanılır.

Övladım – 5 yaşlı Hüseyn Quluzadə daun sindromlu xəstə olduğundan bir ildən artıqdır ki, bu mərkəzdə tədrisə cəlb olunub. Əvvəllər nitqində qüsurlar olan, özünü ifadə edə bilməyən oğlum tez-tez əsəbi olurdu. Onun öz yaşıdlarından geridə qalması bir valideyn kimi bizi çox narahat edirdi. Mərkəzə müraciət etdik və mütəxəssislərlə söhbətdən sonra uşağın burada aparılan məşğələlərə cəlb olunmasına qərar verdik.

Qeyd edim ki, burada oğlumla fərdi şəkildə aparılan məşğələlər getdikcə öz müsbət nəticəsini verməyə başladı. Artıq övladımın nitqində, eləcə də davranışlarında xeyli dəyişiklik var. Elə bu irəliləyişin nəticəsidir ki, indi o, Naxçıvan şəhərindəki 3 nömrəli uşaq bağçasına gedir və burada öz yoldaşları ilə yaxşı münasibət qurmağı bacarır. Təbii ki, bütün bunlar məni bir valideyn kimi çox sevindirir. Uşaqlarımıza göstərilən bu qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm.

**Dilarə YUSİFOVA**
**Naxçıvan şəhər sakini**



## Razılıq

## Xanəgah müasir Azərbaycan kəndinə çevrilib

***Hörmətli redaksiya!***

İlk olaraq qeyd etmək istərdim ki, bu ilin sentyabr ayı mənim və kəndimizin digər sakinlərinin yaddaşında silinməz izlər buraxıb. Belə ki, burada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə bir sıra sosial obyektlər istifadəyə verilib, kəndimizin siması tamamilə dəyişib, Xanəgah müasir Azərbaycan kəndinə çevrilib. Kəndimizdə əhalinin rahat yaşayışı və rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülüb, kənddə həkim ambulatoriyası üçün yeni bina tikilib, məktəb binası yenidən qurulub, Xanəgah abidə kompleksi təmir olunub, elektrik və rabitə xətləri yenilənib. Bütün bunlar bizim sağlamlığımızın qorunması, uşaqlarımızın yaxşı şəraitdə hərtərəfli biliklərə yiyələnməsi, tariximizin yaşadılması və gələcək nəsillərə ərməğan edilməsi üçün mütərəqqi addımlardır. Bu işlərin görülməsilə dövlətimizin kənd sakinlərinin yaxşı şəraitdə yaşamasına və işləməsinə, insanların məskunlaşmasına və gələcəyimiz olan uşaqların təhsilinə, tariximizin yaşadılmasına nə qədər önəm verdiyinin şahidi olduq.

Xanəgah kəndi tarixdə iz qoyan yaşayış məntəqəsidir. Bu ərazidəki Əlincəqala əyilməzlik simvolu kimi tanınır. Eyni zamanda hürufiliyin banilərindən olan Fəzlullah Nəiminin türbəsi də bu kənddə yerləşir. Kənd tarixən elm, təhsil və mədəniyyət mərkəzi olubdur. Quruculuq işləri aparıldıqdan sonra kənddə müasirliklə tarixiliyin vəhdəti yaradılıb. Həkim ambulatoriyasının, məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikilməsi, Xanəgah abidə kompleksinin və Əlincəqalanın bərpa olunması, yolun yenidən qurulması, içməli su xəttinin çəkilməsi və digər quruculuq tədbirlərinin həyata keçirilməsi kəndi abadlığa qovuşdurub, insanların rahat yaşayışı təmin olunub. Xanəgah kəndində tarixi abidələrin yerləşməsi, eləcə də aparılan quruculuq işləri onun turizm potensialını artırır. Kəndə gələn qonaqların sayı ilbəil artır. Ona görə də kənd sakinləri daim kəndin abadlığına, təmizliyinə diqqət yetirir, tikilənlər, qurulanlar qorunub saxlanılır.

Bütün bu görülən işlərə görə dövlətimizə minnətdarlığımızı bildiririk.

**Akif SƏFƏROV**
***Xanəgah kənd sakini***

### *İtmişdir*

Məmmədov Zakir Tofiq oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 714